Ordubad sözünün toponimi - "Sutkada iki dəfə əsən zəif külək" mənasından götürülmüşdür. Ərazidəki saf sulu dağ çayları, öz mənbələrini Zəngəzurun cənub-şərq yamaclarından başlayaraq Araz çayına axırlar.

Onlar Ordubad çayı (19 km), Vənənd çayı (29,4), Gilan çay (53,4), Düylün çayı (29,6 km), Əylis çayı (21 km), Gənzə çayı (15,6 km), Kotam çayı (7,8 km), Kitit çayı (4,8 km) və s.

Gilan çayı öz mənbəyini 3065 m yüksəklikdəki dərinliyi 6,5 m, sahəsi isə 1,5 hektar olan füsunkar "Göygöl"dən başlayır. Yay aylarında ilin 4 fəslini özündə bildirən Göygöl, rayonda yeganə təbii su anbarıdır. Maraqlıdır ki, gölün soyuq sularında nadir balıq növlərindən sayılan "Xallı qırmızı forel"də məskən salmışdır.

***

Ordubad rayonu qədim insanların yaşayış məskənləri olduğundan burada mənəvi-tarixi abidələr sayılan ziyarətgahlar da çoxdur. Onlar "Gəmiqaya" ilə "Qaranquş" yaylaqlarındakı qayaüstü (petpoqiflər) şəkillər, Sabir kəndindəki "Subatın yaşayış yeri", "Muncuqtəpə nekropolu" qədim dövrlərdən xəbər verir.

Tunc dövrünün abidələrindən Vələver, Dər və Aza kəndlərindəki pir (ocaq) yerlərini də göstərmək olar.

Orta əsrlərə aid abidələrdən Kilit kəndindəki mağara, Vənənd kəndindəki istehkam, Üstüpü kəndindəki qəbirstanlıq, "Xaraba Gilan"dakı ərzaq anbarları, Anabat, Yuxarı Əylis, Yuxarı Aza, Vənənd və digər kəndlərdəki yaşayış məskənlərini də misal göstərmək olar.

Ordubad şəhərində hər məhəllənin XVIII əsrdə tikilmiş məscidləri qalmaqdadır. Onlar Cumə, Ambaras, Sərşəhər, Mingis, Dilbərəs, Təkşeyi, Qeysəriyyə, Qara hovuz, Üstürləngə, Əngəçi, Mehrəmcə, Hacı Abutalıb, Çınqılbaşı, Hacı Məmmədhəsən, Hacı Məmmədəli, Qara çağaq, Kərbəlayi Əkbər və başqalarıdır.

Şəhərin küçələrində binaların altında su çeşmələri axır ki, onlar Dilbər, Sərşəhər, Hacı Tağı, Hacı Məmməd, Qara hovuz, Əngəc, Bilal, Mədrəsə, Qırxayaq, Şeyx Əlixan, Əbdülrəhman, Şayı, Meyrəncə, Teci və başqalarıdır.

Ordubad rayonunun əhalisi işgüzar, qonaqpərvər, diqqətcil olaraq, Təbriz şivəsi ilə danışırlar.





Rayondakı yaşlı qadınlar islam dinindəki hicaba əməl etməklə çadra örtürlər. Muxtar Respublikanın digər rayonlarına nisbətən, burada ailə müqəddəsliyi qorunduğundan nikah pozulması hallarına təsadüf edilmir.

# Tir-Əbülfəth aləmi

*Naxçıvan Muxtar Respublikasının səfalı və mənzərəli yerlərindən biri də Ordubad rayonu əraziləridir. 972 min kvadrat kilometr ərazisi olan Ordubad rayonunun əhalisi haliyədə 42 min 884 nəfərdir. Ordubad şəhəri Naxçıvandan 78 km məsafədə, Zəngəzur silsiləsinin Bəlkə dağının cənub yamaclarında salınmışdır. Ərazidə nadir bitkilər, vəhşi heyvanlar və tarixi abidələr olduğundan, dövlət tərəfindən qoruq elan olunmuşdur. Ərazinin coğrafi relyefi dağlıq sahə olmaqla ən yüksək yeri Qapıcudi (Qapıcıq adlanan zirvə Kiçik Qafqazda 3906 m-dir) dağı, ən alçaq yeri isə Dəstə kəndində Vənənd çayının Arazla qovuşduğu (580 m) sahilləridir.*

Ordubadlılar islam mənəviyyatına maraqlı olduqlarından XVIII əsrin ikinci yarısında, I Şah Abbas tərəfindən verilmiş fərmanla vergilərdən azad olunmuşlar. Tarixi sənədin mətni şəhərdəki Cümə məscidinin divarında qalmaqdadır. Əhali əsasən meyvəçilik, arıçılıq, heyvandarlıqla məşğul olmaqla baqqal ticarətinə də maraqlıdırlar.

Azərbaycan tarixi romantizminin banisi M.S.Ordubadinin Ordubad şəhərində ev muzeyi, ikinci dünya savaşı qəhrəmanı olmuş N.Rəfiyevin isə heykəlləri vardır. Bundan başqa şəhərdə orta əsrlərdən qalma buzxana ilə zorxana tarixi tikililəri də qorunmaqdadır. Şəhərdə habelə akademik Y.Məmmədəliyevin də ev-muzeyi fəaliyyətdədir.

***

Ordubad rayonundakı Tivi kəndi dəniz səviyyəsindən 3.000 metr yüksəklikdə Süzgün çayın başlanğıcında salınmışdır. Kənddə çoxsaylı bulaq-çeşmələrlə yanaşı müalicə xarakterli soyuq sulu mineral karbohidrogenli bulaqlar qaynamaqdadır. 308 təsərrüfatı və 1.400 nəfər əhalisi olan Tivi kəndinə, Naxçıvandan 90 km-lik yeni salınmış rahat asfalt dağ yolu uzanmaqdadır. Kənd əhalisinin sosial mədəni quruculuq işlərinə son illərdə diqqət artırılmışdır. Gənc ailələrə torpaq sahələri ayrılmış, şəxsi təsərrüfatın inkişaf etdirilməsinə şərait yaradılmışdır. Tivi kəndində yeni tikilmiş 306 yerlik məktəbdə təhsil alan 263 şagirdə 34 müəllim cəlb olunmuşdur. Kənddəki 192 evə telefon xətti çəkildiyindən rabitə xidmətinin səviyyəsi artırılmışdır. İndi tivili zəhmətkeşlər Azərbaycan televiziya kanallarını evlərindən rahatlıqla seyr edirlər. Dağ kəndi Tividə hazırda 15 çarpayılıq xəstəxana, mədəniyyət evi, daimi kino-video klubu, kitabxana, poçt-rabitə şöbəsi və müxtəlif ticarət mərkəzləri ilə iaşə xidmətləri fəaliyyətdədir. Zəhmətsevən əhalinin yaşlı nümayəndələri uzun ömürlü deyillər. Bunun bir neçə səbəbləri vardır ki, çay yataqlarındakı radiaktiv mineral dağ süxurlarının üzə çıxması ilə yanaşı, kənddəki mövcud bioloji mənfi amillərin nəticəsindən orqanizmə təsiridir.

Bütün bu deyilənlərin sübutunu kənddəki iki qəbirstanlıqdakı mövcud məzarüstü ömür tarixçələrindən oxumaq mümkündür.

Tivililərin özlərinə məxsus milli xarakterli adətənənələri vardır. Onlar el bayramlarında xalqın qədim milli folklor mədəniyyətini qoruyaraq saxlamışlar. Belə ki, xüsusilə Novruz bayramı günlərində yüksək səviyyədə müxtəlif yarışlar keçirilir. Xan bəzədilir, kosa ilə keçəlin oyunbazlıqlarına meydan verilir, at çapanların yarışları keçirilir, pəhləvanların güləşməsi, xoruz döyüşdürənlərin qələbəsi, aşıqların sazlı-sözlü deyişməsi və cavanların əl götürüb rəqs etmələri uşaqların sevincinə səbəb olur.

***

Tivi kəndində iki məscidlə bərabər yetmişə yaxın müxtəlif adlarda olan pirlər (ocaqlar) mövcuddur.

Müsəlmanların müqəddəs kitabı Quran yazısına görə, dünya daşqınından sonra Nuh peyğəmbərin gəmisində üzüb gələnlər, Kiçik Qafqazın hündür zirvəsi Qapı Cudidə nicat tapmışlar. Ehtimal olunur ki, ərazidəki dövrümüzədək qalmış ocaq yerləri (pirləri) onlardan yadigardır..?

Haliyədə Tivi kəndində insanların inanc yerləri sayılan Qarapir, Bibi Qətəl, İmran, Beşqardaş, Palıd, Tağı, Sarı qaya, Dağdağan, Cəviz, Əliəbbas, Qaradaş, Həmzə, Novur, Anabat adlı pirlər vardır. Bundan başqa adı çəkilməyən digər pirlər də vardır ki, onlar kənddən kənardakı dağ qayaları arasında-

dır. Göründüyü kimi adları sonradan ərəblərin yeddinci əsrlərdə Qafqaza gəlməsindən, dəyişdirilərək "müasirləşdirilmişdir"?

Rayonda ən çox şöhrət tapmış Anabat piri, kənddəki eyniadlı məscidin içərisindədir. Həmin pirin məşhur olmasına səbəb məsciddə saxlanılan möcüzəvi əşya sayılan "ələm"dir. Həmin əşyanı kənddəki mücbür Novruz kişi qoruyub saxlamışdır.

"Tir-Əbülfəth" adlı möcüzəvi əşyanın adının mənası, "tir" - paya, dirək, ucalıq, "əbülfəth" sözü isə zəfər deməkdir.

Şərq xalqlarının tarixlərində yazılır ki, Sancaqbəylilər (Bayraqdarlar) əllərində tutduqları "Zəfər bayrağı"nı şərəflə gəzdirib qorumuşlar. Beləliklə, "Tir-Əbülfəth"in mənasına gəlincə İslam xalqlarının (müsəlmanların) dini rəmzi "zəfər bayrağının" kafirlərə qarşı qalib gəlməsinin təzahürüdür.

Yaşıl rəngli rəmzi "Zəfər bayrağı"nın yaradılması, Allahın sonuncu peyğəmbərə göndərdiyi "Quran" kitabı ilə bərabər İslam dinini qoruyaraq saxlamış beş nəfər olmuşlar. Onlar Həzrət Məhəmməd (ə.s) peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyn adlı tarixi şəxsiyyətlərdir…

Haqqında danışılan ələmin gövdəsi "tovuz quyruq" şəklində dəmirdən hazırlanmışdır. Onun üzərində ərəb əlifbası ilə yazılmış Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn sözləri vardır. Həmin sözlər eni 17, uzunluğu isə 25 sm metal şəbəkə lövhə üzərində olaraq simvolik su damlasını xatırladır. Lövhədəki sözlər ortadakı "Əlif" hərfinin üzərində yerləşdirilmiş, əlvan metaldandır.

Dəmirdən olan əşyanın gövdəsi haqqında Quranın "Dəmir" (57) surəsinin 25-ci ayəsində yazılmışdır ki, … "insanlara fayda verən dəmiri də göydən göndəririk…"

Simvolik "Su damlası"nın mənasına gəlincə, canlı aləm sudan yaradılmışdır ki, bu barədə də Quranın "Rum" (30) surəsinin 48-ci ayəsində belə yazılmışdır: "…yağışı (damlasını) bəndələrindən istədiyinə verən kimi onlar sevinərlər"…

Simvolik "Su damlası"nın (əşyanın) möcüzəvi canlanması vardır ki, bu barədə də, Quranın "Furqan" (25) surəsinin 48-ci ayəsində belə yazılmışdır: "…biz göydən təmiz su damlası endirdik ki, onunla cansızları canlandıraq"…

Hər ilin tarixilə Məhərrəm ayının əvvəlinci günlərində möcüzəvi əşyanın saxlandığı sandıqdan cingiltili səs gələndə "Ələmi" (Əşyanı) oradan ehtiramla götürürlər.

Quranın "Bəqərə" (2) surəsinin 117-ci ayəsində belə yazılmışdır: "Allah bir şeyin olmasını istəyərsə, "var ol" deməklə canlanar".

****

"Tir-Əbülfəth" adlı ələmin uzunluğu 1 metr, eni isə 30 sm ölçüsündədir. Onu uzun taxta payasına bağlayaraq nümayiş üçün kənddəki adamlar yığılmış meydana aparırlar. Həmin günlərdə müsəlmanlar axışaraq Tivi kəndinə qonaq gəlirlər. Meydanda Ələmdarı (Sancaqbəylini) sanki möcüzəvi qüvvə dartaraq, nəzir vermək istəyənlərə tərəf çəkir. Şaquli vəziyyətində saxlanılmış ələm sancılmış paya, nəzir verənlərə tərəf əyilməklə "nəzirini aldıqdan" sonra qalxır və başqa səmtə üz tutur…

Quranın "Hud" (48) surəsinin 48 və 49-cu ayələrində yazılmışdır ki, "…elə tayfalar var ki, onlara hər şey bağışlayırıq…, bunlar qeybdən olanlardır ki, sənə bildiririk… çünki, yaxşı aqibət ancaq təqvalılarındır."

Məhərrəm ayının onuncu günləri aşuranın "qətl" vaxtı (Həzrət Hüseynin hicri 61-ci ilində Kərbala çöllərində, xəlifə Şimir İbn Yəzid tərəfindən Şəhadətə çatdırılması anı) ələm, sancaqbəyini dartaraq meydandakı qara örtüklü kəcavəyə (çadıra) tərəf gətirər. Bu zaman ətraf təbiətdə sanki iniltili matəm əks-sədası səslənər. Atlar kişnəyər, heyvanlar mələşər, xoruzlarsa səs-səsə verərək banlayarlar.

Küləksiz havada ağacların budaqları tərpənməklə sonsuz kainatda iniltili səslər ətrafı bürüyər…

Müqəddəs Quranın sözlərilə desək, bu kədərli anları görən bəsirət gözlərlə, eşidən bəsirət qulaqları olan təqvalı insanlar gərəkdir…

"Tir-Əbülfəth" ələminin Ordubadın Tivi kəndinə gətirilməsi tarixçəsini belə söyləyirlər ki, on doqquzuncu yüzilliyin axırlarında ordubadlı Molla Hacı Ələkbər oğlu Muxtəri İraqın Nəcəf şəhərindəki ruhani mədrəsəsində oxumağa göndərir.

Xəlifə Mötəşim İbn Şimirin hakimiyyəti zamanında İraq ərazilərinə sürgün olunmuş naxçıvanlı türklər (Kərtüklər (cəzalanmış türklər), sonradan onlar kərkük adlandırılmışdır) gənc Muxtərə orada himayədarlıq etmişlər. On beş ilə yaxın vaxt ərzində təhsilini bitirən Muxtərə "Üləma" (din alimi) adı verilərək vətəninə göndərilir. Qayıdanbaşı Muxtər İrandakı müqəddəs ziyarətgahları görmək həvəsilə Tus şəhərinə getməli olur.

Şiə müsəlmanlarının səkkizinci imamı sayılan Həzrəti Rzanın Xorasan vilayətində olduğu yerləri ziyarət etdikdən sonra o, İrandakı Qumla Tehran ziyarətgahlarına da baş çəkir. Muxtər Qum şəhərində olarkən İranın ali dini hakim dairələrinin xahişi ilə, Azərbaycanın Ələmdar vilayətinə (şəhərinə) Qazi təyin olunur. Tezliklə Qazi Muxtər Ələmdarda evlənərək ailə qurur və orada xalqın nüfuzunu qazanır. Ələmdarın din xadimi Muxtər xeyriyyəçilik göstərərək öz vəsaiti hesabına orada məscid və mədrəsə tikdirmişdir. Qazi Muxtər Ələmdar vilayətinin yoxsul uşaqlarını mədrəsədə oxutdurmuş, yerli şagirdlərin əlyazmalarını toplayaraq, Qum şəhərindəki mətbəədə çap olunmasına yardım göstərmişdir. Haliyədə İranın Qum şəhərindəki kitabxanasında saxlanılan iranlı türk şairlərinin kitabları ilə bərabər (onların əlyazmalarına mütərcimlik etmişdir), qazi, Mərceyi Üləma Muxtər Hacı Ələkbər oğlunun yazdığı "Muxtərnamə" adlı əlyazması da saxlanılır.

***

Qazi Muxtər atasının ölüm xəbərini eşitcək işlərini xətm edərək (buraxaraq), köçüb Ordubada gəlməli olur. Vətənə dönərkən özü ilə bərabər nadir əlyazmalarla birlikdə möcüzəvi "Tir-Əbülfəth ələmi"ni də gətirmişdir. Təəssüf ki, onun haqqında danışanlar möcüzəvi əşyanın Muxtərin əlinə haradan keçməsini bildirmirlər. Ehtimal olunur ki, həmin ələm ona Nəcəf mədrəsəsinin müəllimləri tərəfindən bağışlanmışdır.

1900-cu ildən kərbəlayi Muxtər (ona bəzən məşhədi Muxtər də deyərdilər), Ordubadın füsunkar dağ kəndlərindən olan Tiviyə köçmüşdür. O, kənddəki qədimdən qalma "Anabat" pirində xeyriyyəçilik göstərərək məscid tikdirmiş və ərazidə mollalıq etmişdir.

Molla Muxtər kənddə yoxsul ailələrə maddi köməklik göstərsə də, həmkəndlilərini İslamdakı şəri vacib əməllərə cəlb edə bilməmişdir. Otuzuncu illərdə Naxçıvanda ateizm təbliğatı gücləndiyindən Tivi kəndindəki məscidləri də kolxoz anbarına çevirmişlər. Dini-mənəvi mərasimlərin keçirilməsi yasaq olduğundan, sonralar Tivi kənd məscidlərindən birini kooperativ dükan etmişlər. Bütün təqiblərə məruz qalan Muxtər kişi mollalıqdan əl çəkərək, ələmin qorunub saxlanılması ilə məzarının "əmanət qəbir" kimi basdırılmasını vəsiyyət etmişdir. Mərhumun vəsiyyətinə əməl edən varisləri tərəfindən ələm gizlədilərək saxlanılsa da, məzarı baxımsızlıqdan dağılmışdır. Mərhum molla Muxtərin ruhu hələ də gözləyir ki, onun vəsiyyətinə əməl etməklə çürümüş sümük qalıqlarını kimsə aparıb İraqdakı məşhur "Baqi" qəbirstanlığında yenidən dəfn edə.

Haliyədə Tivi kəndində Molla Muxtərin yeganə varislərindən 68 yaşlı qız nəvəsi sayılan şikəst Məcid Ələkbər oğlu yaşamaqdadır. Onun həmyaşıdlarından Ramazan Əliyev, Məhəmmədəli Sultanov, Əlihüseyn Xəlilov və başqaları ildə bir kərə möcüzəvi ələmi gördükdə mərhum Molla Muxtəri xatırlayırlar.

Çox yaxşı olardı ki, kənddəki imkanlı şəxslər tərəfindən mərhumun ruhunu şad etməklə məzarı üzərində xatirə lövhəsi qoyardılar.

Görkəmli şərqşünas mərhum Əziz Şərifin sözlərilə desək: "Gözlə kiçik görünən, mənəviyyatca böyük olan tarixi şəxsiyyətlərə hörmət və ehtiram gərəkdir".

Naxçıvan diyarı mənəvi-tarixi abidələrlə zəngindir. Burada 450-dən çox ziyarətgahlar dövlət tərəfindən qorunaraq qeydə alınmışdır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin 2005-ci il 6 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası ərazilərindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işlərinin təşkili haqqında" sərəncamına əsasən Ordubad rayonundakı Tivi kəndi ərazilərində də elmi-tədqiqat işləri aparılır. Naxçıvan MR Elmi-Bərpa İstehsalat İdarəsinin inşaatçıları son illərdə onlarca dağılıb sökülmüş tarixi türbələri bərpa edərək xalqın ixtiyarına vermişlər.

Bu işdə Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinə yerlərdəki icra hakimiyyəti ilə bələdiyyələr də yaxından kömək göstərirlər. Naxçıvan Muxtar Respublikasında turizmi inkişaf etdirmək məqsədilə böyük imkanlar vardır. Buna görə də xalqımızın mənəvi sərvətlərini qoruyaraq tarixi keçmişimizi öyrənməklə gələcək nəsillərə çatdırmaq gərəkdir. Mərhum şair Məmməd Araz demişkən; "Vətənini sevmədən, mənəvi tarixini öyrənib öyrətmədən olmaz vətən daşı".

**Feyruz BAĞIROV,**
***Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin şöbə müdiri***